# Məktəbəqədər dövrdə uşaqlarda ətraf aləm haqqında təsəvvürlərin formalaşması

**Günəş Əli qızı Əfəndiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*"Ümumi psixologiya" kafedrasının baş müəllimi*
**E-mail:** gunes.efendiyeva1953@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d. Y.B. Əskərova

**Açar sözlər:** uşaq, ətraf aləm, təssəvvürlər, şəxsiyyətin formalaşması, məktəbəqədər dövr, dünyagörüş, valideyn, tərbiyə

**Ключевые слова:** ребенок, окружающая среда, воображение, формирование личности, дошкольный период, мировоззрение, родитель, образование

**Key words:** child, environment, imagination, personality formation, preschool period, outlook, parent, education

"Uşağın fiziki inkişaf şkalasında 3 yaşdan 6 yaşadək davam edən məktəbəqədər yaş dövrü inkişafda məhsuldar bir mərhələ kimi nəzərdən keçirilir. Bu illər ərzində əldə edilən psixi xassə və keyfiyyətlər uşağın şəxsiyyət kimi təşəkkülündə və intellektual inkişafında olduqca əhəmiyyətlidir" (1, s. 162). Məktəbəqədər yaşlı uşaqların onu əhatə edən dünya ilə tanış olması — bu dünya haqqında adekvat təsəvvürlərin və biliklərin onların şüurunda yaranmasıdır. Məktəbəqədər yaş məhz o dövrdür ki, uşaqların gələcək şəxsiyyətinin inkişafında əhatəli mənaya malik olan dünya haqqında təsəvvürlərin bünövrəsi qoyulur. Uşaqların nitqə yiyələnməsi onların həyatında mühüm rol oynayır. Nitqin ünsiyyət vasitəsi kimi, daha geniş ifadəsi, ətraf aləmdə yeni sərhəd açaraq uşağın dünyagörüşünün formalaşmasına, zənginləşməsinə səbəb olur. İki-üç yaş uşaqların ətraf mühitlə tanışlıq dövrüdür. Ona görə də uşaqlar bu yaşda çoxlu şüurlu və şüursuz suallar verirlər. bu suallar uşağın təsəvvüründən və geniş fantaziyasından irəli gəlir. Suallar daha çox "Bu nədir?", "Niyə belə olur?" xarakterli olur və heç bitib tükənmək bilmir. Yaş artdıqca uşaqların suallarının xarakteri də dəyişir. Belə ki, dörd yaşlı uşağı artıq bu dövrdə sadəcə nəyin necə əmələ gəlməsi deyil, onun əmələ gəlməsinin səbəbi və nəticəsi maraqlandırmağa başlayır. Ona görə də dörd yaşlı uşaqda əsas sual "Nə üçün?" olur. Lakin başa düşmək lazımdır ki, uşaq üçün bütün dünya sehrli və sirli bir aləmdir. Bu aləmə bələd olmayan uşaq dünyanı, ətraf aləmi, ümumiyyətlə, hər şeyi özü üçün müəyyənləşdirməyə, öyrənməyə çalışır.

Uşaq onu əhatə edən aləm haqqında, həyat haqqında ilk təəssüratı ailədə alır. Ona görə də valideynlər uşaqlarının suallarını cavabsız qoymamalı və hesab etməməlidirlər ki, uşaq sualı boş yerə verir. Bu suallar uşaq şəxsiyyətinin formalaşması və idrak prosesində təfəkkürlə təxəyyülün normal inkişafı ilə əlaqələndirilir. Müəyyən olunmuşdur ki, bu yaş dövründə uşaqlar dünya haqqında lazımı məlumat almazlarsa, bu onlarda mühüm məsələlərin mahiyyətini anlamaq, hadisələrdən baş çıxarmaq və s. kimi məsələlərdə problemlərin yaranmasına gətirib çıxara bilər. Qeyd eləmək lazımdır ki, uşaqlar sual verən zaman valideynin mimikasına və səsinin tonuna xüsusi diqqət verirlər.

Müşahidələr göstərir ki, bu yaş dövründə uşaqlar gün ərzində 200-ə yaxın sual verirlər. 2-3 yaşlı uşaqların verdiyi suallarda təkrarçılıq xarakteri özünü göstərsə də, 3 yaşından sonra

verilən suallar öyrənmə xarakteri daşıyır.

Valideyn uşağa verdiyi hər bir izahatda diqqətli olmalı, düzgün cavab verməlidir. Çünki həmin sözlər sanki uşağın yaddaşına həkk olunur. Hətta bir müddət keçdikdən sonra uşaq həmin izahı bir qanun kimi valideynin yadına salır. "Eyni zamanda bu dövrdə uşaqda ya təşəbbüskarlıq ya da günahkarlıq hissi formalaşır. Bu isə valideynlərinin uşağa qarşı münasibətindən asılıdır. Bu dövrdə uşaq öz münasibətlərini sosial normalara uyğunlaşdırmağa çalışır" (2, s. 307). "Məktəbəqədər yaşlı uşaqların suallarında və izahlarında fərziyyəyə əsaslanan təfəkkür əlamətlərinə rast gəlmək olur. Məsələn, 3 yaşlı uşaq iyul ayında havanın temperaturu +37 dərəcə olanda atasına yalvarır: "Ata, mən qar istəyirəm. Allaha de, qar yağdırsın". Belə vəziyyətdə valideyn nə etməlidir. Uşağı hirsləndirmək olmaz, uşağın könlündən qar keçir. Valideyn ilin fəsilləri haqqında məlumat verir. Eyni zamanda uşağın nə üçün qar istəməsi ilə maraqlanır" (3, s. 69-71).

Uşaqlarda dünyagörüşün inkişafında ən əhəmiyyətli fəaliyyət oyundur. Oyun zamanı uşaq indiyə qədər ona məlum olmayan müxtəlif məlumatlara yiyələnir. Həmçinin, oyun uşağın maraqlarına xitab etdiyi üçün hadisələr məlumatlar onun yaddaşında daha tez qalır. Uşaqlara hər hansı bir məlumat verən zaman bunu oyun xarakterli həyata keçirdikdə daha uğurlu olur. Dünya haqqında ilkin təsəvvürlərin formalaşması, biliklərin artırılması ilə birlikdə uşaqlarda özləri haqqında fikirlərin əmələ gəlməsi baş verir. "Oyun fəaliyyətində uşaqların müəyyən ünsiyyət formaları da meydana çıxır... Oyun fəaliyyəti prosesində uşaqlar öz hərəkətlərini başqaları ilə uzlaşdırmaq, qarşılıqlı kömək və qarşılıqlı anlaşma, eyni zamanda ünsiyyətə girmə bacarığına yiyələnirlər" (4, s. 195-196).

Özünüdərkin və inkişafın mənbəyi aparıcı fəaliyyət hesab edilir. Oyun – ictimai təcrübənin mənimsənilməsinə yönəldilmiş şərti vəziyyətlərin fəaliyyət formasıdır. Uşaqlarda idrak prosesləri inkişaf etdikcə, onların özləri haqqındakı təsəvvürləri də mürəkkəbləşir. Nitqin rolunu bu baxımdan xüsusi qeyd etmək lazımdır. "Nitq və təfəkkürün inkişafı ilə əlaqədar olaraq ...uşaq təkcə konkret, emosional cəhətdən zəngin, əyani materialları deyil, sözün özünü, sözlə ifadə olunan materialları daha yaxşı yadda saxlayır. ...təsadüfi deyildir ki, ən dəqiq və aydın təəssürat, xatirə həmin dövrə aid olur" (5, s. 468).

Uşağın öz "Mən"ini fadə etməsi nitqin inkişafı ilə biavasitə bağlıdır. Uşaq özünü dərk edəndən, özünü digərlərindən fərqləndirməyə başladığı müddətdən etibarən onun nitqində "mən" şəxs əvəzliyi daha çox işləməyə başlayır. Məktəbəqədər yaşlı uşaqlarda özünü sevmə və özünüdərketmə motivləri müşahidə olunur. Özünüdərketmə intensiv, intellektual və şəxsi inkişaf nəticəsində məktəbəqədər yaşın sonunda formalaşır və o adətən məktəbəqədər mərkəzi yenitörəməsi hesab edilir. Öz obrazının formalaşması uşağın ünsiyyət prosesində qazandığı fərdi təcrübə və informasiya əlaqələrinin qurulması əsasında olur. Uşaq insanlarla əlaqələri yerinə qoyaraq, başqa uşaqların nəticələriylə öz fəaliyyətinin nəticələrini müqayisə edərək, həm özü haqqında, həm də digərləri haqqında məlumat alır. Beləliklə, bu dövrdən etibarən oğlan və qızlar özlərini dətk etməyə başlayır.

Özünüdərketmə əsasən başqa adamları müşahidə və yaşlılarla münasibətdə formalaşır. Oğlan və qızlar özləri haqqında məlumatı ən çox yaşlılardan alırlar. "Hər bir valideyn cəmiyyətdə bərqərar olmuş kişilik və qadınlıq etalon və stereotiplərini nəzərə alır, oğlanlara kişi, qızlara qadın üçün səciyyəvi tələbat, maraq və xarakter əlamətləri, davranış və rəftar qaydaları aşılayır" (6, s. 580). Yaşlılar uşaqlara kömək edir ki, öz cinsi barədə məlumatlı olsunlar.

Uşağın öz cinsinin müəyyənləşdirilməsi isə ailədən başlayır. Məsələn: valideyn deyir ki, "Qızsan belə hərəkət etmə", yaxud oğlana "Sən bunu edə bilərsən". Belə təsir uşaqda özünüdərketməyə, öz xüsusiyyətlərini başa düşməyə səbəb olur. Uşaqlar öz cinsi mənsubiyyətlərini

dərk edərək anlayırlar ki, səmimilik, həssaslıq daha çox qızlara, cəsarət özünəinam daha çox oğlanlara xasdır. Məktəbəqədər yaş uşaq üçün ən önəmli dövr hesab edilir. Belə ki, uşağın dünyagörüşü, ətraf aləm haqqında təsəvvürləri məhz bu dövrdə formalaşır və bu müddətdən sonra artıq o özünü dərk edir və onda özünə qarşı yeni motivlər əmələ gəlir. Bu yaş dövrü uşaqların inkişafında, onların psixoloji cəhətdən sağlam bir şəxsiyyət kimi inkişafı üçün həssas dövrdür.

Körpəlik dövründən məktəbəqədər dövrə keçid bir çox fərqlərlə müşahidə olunur: 1) psixi funksiyaların inkişafı 2) süjetli-rollu oyunlar uşaq şəxsiyyətinin inkişafına əsaslı təsir göstərir 3) insani münasibətlərə ümumi fikir, bələdləşmə əmələ gəlməsi 4) tabeçilik və idarəetməyə münasibətlərin yaranması 5) ümumi motorikanın, nitqin inkişafı 6) motivlərin qarşılıqlı tabeliliyinin formalaşması 7) sosial norma və qaydaların mənimsənilməsi və əxlaqi davranışın təşəkkülü 8) motivasiya - tələbat sferasının inkişafı. Məktəbəqədər yaş uşağa yeni prinsipial nailiyyətlər gətirir. Bunu valideynlər və nəzarətçilər daim göz önünə almalı və nəzərdən qaçırmamalıdırlar.

**Məqalənin aktuallığı.** Məktəbəqədər yaş məhz o dövrdür ki, uşaqların gələcək şəxsiyyətinin inkişafında onları əhatə edən ətraf aləm, dünya haqqında təsəvvürlərin bünövrəsi qoyulur. Bütün bunların uşaqların dünyagörüşlü və hərtərəfli şəxsiyyət kimi yetişməsinə olan təsiri olduqca böyükdür. Məqalənin də aktuallığı onun məhz belə bir vacib bir problemə həsr olunması ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə valideynlərin və müəllimlərin hər şeydən əvvəl uşaqlara bir şəxsiyyət kimi yanaşılması xüsusi vurğulanır. Qeyd olunur ki, uşaqların, xüsusilə də məktəbəqədər yaşlı uşaqların sualları cavablandırılmalı, onlara dünya haqqında, ətraf aləm haqqında dolğun məlumat verilməlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri istifadə edə bilərlər.

## Ədəbiyyat


1. N.Z. Çələbiyev. Uşaq psixologiyası: Dərs vəsaiti. Bakı, 2005.
2. R.İ. Əliyev. Psixologiya tarixi: Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2006.
3. N.Ə. Xəlilov. Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Bakı: “Şimal-Qərb”, 2012.
4. Ə. Qədirov. Yaş psixologiyası: Ali pedaqoji məktəb tələbələri üçün dərs vəsaiti. Bakı: Maarif, 2008.
5. Psixologiya: Ali məktəblərin bakalavr pilləsi üçün dərslik / Prof. S.İ. Seyidovun və prof. M.Ə. Həmzəyevin elmi redaktorluğu ilə. Bakı: Nurlan, 2007.
6. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Çinar-Çap, 2009.

**Г.А. Эфендиева**

## Формирование представлений об окружающем мире у дошкольников

### Резюме

В статье особо подчеркивается, что родители и педагоги относятся к детям как к личностям. Отмечается, что на вопросы детей, особенно дошкольников, необходимо отвечать, давать им полную информацию об окружающем мире и окружающем мире. Дошкольный возраст – это период, когда в развитии будущей личности детей закладывается фундамент представлений об окружающем мире и окружающем их мире. Влияние всего этого на развитие детей как мировоззренческих и всесторонних личностей показано в статье на конкретных примерах.

**G.A Efendiyeva**

## Formation of ideas about the surrounding world in preschool children

### Summary

The article especially emphasizes that parents and teachers treat children as individuals. It is noted that the questions of children, especially preschool children, should be answered, and they should be given full information about the world and the surrounding world. Preschool age is the period when the foundation of the ideas about the surrounding world and the world surrounding them is laid in the development of children's future personality. The effect of all these on the development of children as a world-viewing and comprehensive personality is specifically shown in the article with concrete examples.

**Redaksiyaya daxil olub:** 20.07.2022